# AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI ŞURASININ QƏRARI

Bakı şəhəri № 227/1 31 yanvar 2012-ci il

Azərbaycan Respublikası Auditorlar Palatasının
"Auditor xidmətinin keyfiyyətinə nəzarətin həyata keçirilməsi
üzrə 2012-ci il üçün iş planının tərtibi və təsdiqi" barədə

Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının "Auditor xidmətinin keyfiyyətinə nəzarətin həyata keçirilməsi üzrə 2012-ci il üçün iş planının hazırlanması tərtibi və təsdiqi" 3.2-ci, 1-ci bəndlərinə uyğun olaraq, Palatanın Keyfiyyətə nəzarət Komitəsi (M.Abbasov) tərəfindən hazırlanmış "Auditor xidmətinin keyfiyyətinə nəzarətin həyata keçirilməsi üzrə 2012-ci il üçün iş planı" barədə layihəni müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. Azərbaycan Respublikası Auditorlar Palatasının "Auditor xidmətinin keyfiyyətinə nəzarətin həyata keçirilməsi üzrə 2012-ci il üçün iş planı" təsdiq edilsin (əlavə olunur).
2. Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinə (M.Abbasov, İ.Bayramov) tapşırılsın ki, bir ay müddətində sərbəst auditorların və auditor təşkilatlarının yoxlanılmasını həyata keçirəcək nəzarət qruplarının üzvlərinin və qrup rəhbərlərinin təyin edilməsi barədə layihəni tərtib edərək təsdiq olunması üçün təqdim etsinlər.
3. Auditorlar Palatasının Keyfiyyətə nəzarət Komitəsinə (M.Abbasov, İ.Bayramov) tapşırılsın ki, bu qərarın 2-ci bəndində göstərilən layihə təsdiq edildikdən sonra qrup rəhbərləri tərəfindən yoxlanılacaq sərbəst auditorlara və auditor təşkilatlarına bildirişlərin "Auditor xidmətinin keyfiyyətinə nəzarətin həyata keçirilməsi üzrə 2012-ci il üçün iş planı"na və "Azərbaycan Respublikasında auditor xidmətinin keyfiyyətinə nəzarət üzrə Əsasnamə"nin müddəasına uyğun olaraq göndərilməsini təmin etsinlər.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**